İPƏK YOLU, No.3, 2024, səh.134-145
https://doi.org/10.30546/SI.2024.2.3.330

# SİYASİ DİSKURSDA NİTQİ MANİPULYASİYANIN ROLU: MÜASİR STRATEGİYALARIN TƏHLİLİ

**Könül Həbibova**

İ. Nəsimi adına Dilçilik İnstitutu AMEA, Bakı, Azərbaycan
e-mail: konul_habibova@mail.ru

**Xülasə.** Məqalədə dünya siyasi liderlərinin çıxışlarına istinadən siyasi diskursda nitqi manipulyasiyanın rolu təhlil edilmişdir. Burada lider imicini formalaşdırmaq, auditoriyaya təsir etmək və siyasi məqsədlərə nail olmaq üçün nitq texnikalarından istifadənin müasir strategiyalarını araşdırılmışdır. Alınan nəticələr nitq strategiyalarının ictimai rəyin formalaşmasına və siyasi proseslərə təsir mexanizmlərini başa düşmək üçün faydalı ola bilər.

**Açar sözlər:** Nitqi manipulyasiya, siyasi diskurs, strategiya, informasiya mübarizəsi, nitqi təsir mexanizmləri.

**THE ROLE OF SPEECH MANIPULATION IN POLITICAL DISCOURSE: AN ANALYSIS OF MODERN STRATEGIES**

**Konul Habibova**
*Institute of Linguistics named after Nasimi ANAS,,*
*Baku, Azerbaijan*

**Abstract.** This article is dedicated to exploring the role of speech manipulation in political discourse through the speeches of world political leaders. The author analyzes modern strategies of using linguistic techniques to shape the leader's image, influence the audience and achieve political goals. The findings could be valuable in understanding the mechanisms through which speech strategies impact public opinion and political processes.
**Keywords:** Speech manipulation, political discourse, strategy, information warfare, mechanisms of linguistic influence.

**РОЛЬ РЕЧЕВОЙ МАНИПУЛЯЦИИ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ: АНАЛИЗ СОВРЕМЕННЫХ СТРАТЕГИЙ**

**Конуль Габибова**
*Институт Языкознания имени Насими НАНА,*
*Баку, Азербайджан*

**Резюме.** Статья посвящена исследованию роли речевых манипуляций в политическом дискурсе на примере выступлений политических лидеров мира. В статье анализируются современные стратегии использования речевых приемов для формирования образа лидера, воздействия на аудиторию и достижения политических целей. Полученные результаты могут быть полезны для понимания механизмов влияния речевых стратегий на формирование общественного мнения и политических процессов.
**Ключевые слова:** Речевая манипуляция, политический дискурс, стратегия, информационная борьба, механизмы речевого воздействия.

## 1. Giriş

Nitqi manipulyasiya çağdaş dünyamızda siyasi diskursun ayrılmaz hissəsinə çevrilmişdir. İnsanların fikirlərinə təsir etmək, ictimai şüuru formalaşdırmaq və kütləni idarə etmək bacarığı siyasətçiləri məqsədlərinə çatmaq üçün müxtəlif strategiya və üsullardan istifadə etməyə təhrik edir. Siyasi diskursda nitq manipulyasiyasının rolu müasir cəmiyyətin ən aktual və mühüm problemlərindən biridir. Dilin təsir və inandırma vasitəsi kimi istifadəsi qədim bir ənənəyə malikdir, lakin müasir informasiya cəmiyyətində bu problem xüsusilə kəskin dərəcədə böyük əhəmiyyət kəsb edir. Müasir siyasi kommunikasiya strategiyalarının təhlili

siyasətçilərin və ictimai xadimlərin öz məqsədlərinə çatmaq üçün nitqi manipulyasiyadan istifadə etmələrinin bir çox yollarını ortaya qoyur.

Bugünkü siyasi diskurs kütləvi şüura təsir etməyə yönəlmiş müxtəlif nitqi taktika və üsulların geniş tətbiq olunduğu meydandır. Siyasətdə nitq manipulyasiyasının müasir strategiyalarının təhlili bizə ictimai rəyin necə formalaşdığını, auditoriyanı manipulyasiya etmək üçün hansı üsullardan istifadə edildiyini və bu texnikalar sayəsində hansı nəticələrin əldə edildiyini anlamağa imkan verir.

G. Şiller belə hesab edir ki, "*manipulyasiyanın uğuru dinləyənin baş verən hər bir şeyin təbii və qaçılmaz olduğuna inanması ilə şərtlənir... Başqa sözlə desək, manipulyasiya onun varlığının hiss olunması mümkün olmayan saxta reallıq tələb edir*" [17, s.27]. G. Şillerin bu iddiasını daha geniş şəkildə təhlil etdikdə, belə bir nəticəyə gəlinir ki, uğurlu manipulyasiya insanın baş verənlərdən xəbərsiz olduğu və özünü müdafiə edə bilməyəcəyi qeyri-real, saxta gerçəkliyin yaradılmasını tələb edir.

Təbii ki, siyasi diskursda manipulyativ nitqi texnikalara - üsullara hər zaman müraciət edilir. Bu gün bütün dünyada siyasi vəziyyətin gərginləşməsi fonunda siyasətdə və mediada, KİV-də nitqi manipulyasiya mövzusu xüsusilə aktualdır. Çünki bu gün dil yalnız ünsiyyət üsulu deyil, həm də insanlara təsir və nəzarət vasitəsidir.

Bu məqalə çərçivəsində apardığımız elmi araşdırmada biz nitqi manipulyasiya prizmasından müasir siyasi kommunikativ strategiyalarının dərin təhlilini aparmağı təklif edirik. Müasir siyasi diskursda istifadə olunan əsas taktika və tendensiyaları müəyyən etməyə və onların ictimai rəyə təsirini təhlil etməyə çalışacağıq. Belə təhlil siyasi ünsiyyətin mahiyyətini və bu prosesdə nitqi manipulyasiyanın rolunu daha yaxşı anlamağa kömək edəcəkdir.

## 2. Metod və materiallar

Siyasi diskursda nitqi manipulyasiyanın müasir strategiyalarını təhlil etmək üçün dilçiliyin təsviri, müqayisəli-tipoloji və tarixi-müqayisəli araşdırma metodlarına müraciət edilmiş, özündə konkret manipulyasiya üsullarından istifadənin tezliyini və yollarını müəyyən etmək üçün siyasi çıxışların mətnlərinin təhlilini ehtiva edən kontent-analiz üsulundan istifadə edilmişdir.

Tədqiqat materialı kimi müasir dünyanın aparıcı siyasətçiləri qismində Rusiya Federasiyasının Prezidenti V. Putin, Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev və ABŞ-ın sabiq prezidenti B. Obamanın çıxışları və seçki kampaniyalarında istifadə olunan şüarlar linqvistik təhlilə cəlb edilmişdir. Tədqiqatın elmi-nəzəri əsası kimi mövzü ilə bağlı bir sıra elmi araşdırmalara müraciət olunmuşdur.

***Mövzunun işlənmə dərəcəsi.*** Nitqi manipulyasiya son illər dilçilərin, sosioloqların və psixoloqların diqqətini xüsusilə cəlb edir. Bu nitqi-psixoloji fenomenə isə siyasi diskursda daha ciddi yanaşılır. Bununla bağlı O.L. Mixaleva öz elmi araşdırmasında manipulyativ təsirin özəlliklərini məhz siyasi diskursun təhlili ilə izah etməyə çalışmışdır. Onun "Siyasi diskurs:

manipulyativ təsirinin xüsusiyyətləri" adlı kitabı siyasi kontekstdə nitqi manipulyasiyanın mexanizmlərinin öyrənilməsinə həsr edilmişdir [15]. Müəllif siyasətçilərin ictimai rəyə təsir etmək, müəyyən siyasi kurs formalaşdırmaq və məqsədlərinə çatmaq üçün istifadə etdikləri linqvistik vasitələrin xüsusiyyətlərini təhlil edir.

Kitabda siyasətçilərin linqvistik konstruksiyalar və manipulyasiya üsulları vasitəsilə auditoriyada müəyyən ideya və münasibətləri necə formalaşdırdığı, onların fikir və hərəkətlərinə necə təsir etdiyi araşdırılır. Siyasi nitqlərdə istifadə olunan ritorikanın, emosiyaların, məntiqi fəndlərin təhlilinə xüsusi diqqət yetirilir. Müəllif bu əsərində insanların şüuruna və davranışına təsir edərək siyasətçilərə öz məqsədlərinə çatmaqda kömək edən manipulyasiya üsullarının mahiyyətini açmağa çalışır.

T.A. Korolyova siyasi diskurs çərçivəsində siyasətçilərin və ictimai xadimlərin öz tərəfdaşlarını (müttəfiqlərini) vurğulamaq və onları "yad" qrupdan (opponentlər, rəqiblər, düşmənlər) fərqləndirmək üçün hansı linqvistik üsul və üsullardan istifadə etdiyini araşdırır. Müəllif öz elmi araşdırmasında siyasi ünsiyyətdə "doğma" və "yad" konseptləri arasında sərhədlərin yaradılmasına və möhkəmlənməsinə kömək edən müxtəlif linqvistik konstruksiyalar, sözlər, ifadələr, metaforalar və digər dil vahidləri təhlil edir. Dil vasitəsilə "doğma" və "yad" konsepti haqqında fikirlərin necə formalaşdığını, müəyyən linqvistik vasitələrdən istifadə etməklə hansı stereotiplərin və qərəzlərin aktivləşdirilə biləcəyini araşdırır [13].

Daha sonrakı tədqiqatlarında T.A. Koroleva, İ.A. Dyadçenko və T.A. Petruxina ilə birgə ABŞ-ın keçmiş prezidenti D. Trampın konkret çıxışlarından istifadə edərək siyasi diskursda manipulyasiya vasitələrini araşdırır, onun auditoriyaya təsir etmək və müəyyən ictimai rəy formalaşdırmaq üçün müxtəlif linqvistik və ritorik üsullardan necə istifadə etdiyini təhlil etmişdir [9].

D. Trampın siyasi diskursunun tədqiqinə digər araşdırmalarda da rast gəlinir. Məsələn, J. Sun və Z. Lui müştərək tədqiqatlarının birində iqtisadi məsələlərlə bağlı D. Trampın çıxışlarını nümunə kimi istifadə edərək siyasi diskursda qiymətləndirmə strategiyasını araşdırmışlar [4]. Bu tədqiqat həm makro, həm də mikro analiz səviyyələrini özündə birləşdirən vahid yanaşmaya əsaslanır. Təhlil zamanı üç qiymətləndirmə mexanizmi təklif edilmişdir: mənaların birləşməsi, semantik gediş və temporal zamanın dəyişməsi. Bu araşdırma Trampın siyasi diskursunun xüsusiyyətlərini qismən ortaya qoyur.

Azərbaycan dilçiliyində siyasi diskursun özəlliyi və inandırıcı xüsusiyyətləri ilə bağlı silsilə elmi araşdırmalar aparan tədqiqatçılar arasından A. Allahverdiyeva [1], İ. Tahirov [5], N. Zamanovun [7] elmi əsərlərini nümunə gətirmək olar. İ. Tahirov Azərbaycan xalqının ümumilli lideri, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin andiçmə nitqlərinin linqvostatik və funksional təhlilini aparmış və belə bir nəticəyə gəlmişdir ki, "*siyasi ünsiyyətin məqsədi prezident ilə cəmiyyətin, toplumun əlaqəsini formalaşdırmaqdır*" [5, s.18]. N. Zamanov isə öz

dilçilik elmi araşdırmalarını H. Əliyevin dilinə, nitqinə həsr etmiş, onun siyasi dilində etik dəyərləri əks etdirən konseptlərin xüsusi təhlili aparmışdır [7].

Göründüyü kimi, son illər bu mövzu ilə bağlı aparılan elmi araşdırma və təhlillər məsələnin yalnız müxtəlif tərəflərini işıqlandırmış, siyasi diskursda nitqi manipulyasiyanın strategiyaları məsələsinə ötəri şəkildə toxunulmuşdur.

## 3. Tədqiqatın əsas hissəsi

Hazırda dilçilikdə nitqi manipulyasiya üsullarının konkret təsnifatı mövcud deyildir. Belə bir təsnifatlardan birini siyasi diskursda nitqi manipulyasiyanı tədqiq edən Yu.A. İlyiçeva təqdim edir. Onun təsnifatına görə nitqi manipulyasiya üsulları leksik-qrammatik və sintaktik olmaqla iki qrupa ayrılır [11]. Lakin, bununla belə, nitqi manipulyasiya fenomenini sırf linqvistik çərçivədə nəzərdən keçirməyi doğru hesab etmək olmaz. Belə ki, əgər burada hər hansı bir şəxslərarası təsirdən söhbət gedirsə, o zaman nitqi manipulyasiya dilçiliyin həmhüdud sahələri də nəzərə alınmaqla araşdırılmalı, fərqli startegiyalarda daha çox hansı üsulun effektli olması müəyyən edilməlidir. Qeyd edilir ki, "*siyasi diskurs çərçivəsində nəzərdən keçirilən, nitqi manipulyasiya yolu ilə həyata keçirilən təbliğat insanların yaşadıqları cəmiyyətə, onun əsas dəyərlərinə və prioritetlərinə münasibətini dəyişməyə yönəlib*" [12].

Siyasi diskursda nitqi manipulyasiyanın əsas üsullarından biri emosional amillərdən və ya elementlərdən istifadədir. Siyasətçilər dinləyicilərində müəyyən hislər və assosiasiyalar oyatmaq üçün emosional arqumentlərdən fəal şəkildə istifadə edirlər. Bunlar ümid, sevinc və heyranlıq kimi müsbət emosiyalar və ya qorxu, nifrət və kin kimi mənfi emosiyaların oyanmasını stimullaşdıran elementlər (intonasiya, jest, konkret leksik vahidlər) ola bilər. Çox vaxt belə emosional arqumentlər nitqin məntiqi məzmununu, cəhətini üstələməklə insan kütləsinin verə biləcəyi qərarlara təsir edə bilər.

İrəli sürdüyümüz bu iddiaları təsdiq etmək üçün bir neçə konkret nümunəyə nəzər yetirək. Məsələn, Rusiya Federasiyasının prezidenti V. Putin diqqəti xarici təhlükələrə yönəlmək və düşmən obrazı yaratmaq məqsədilə öz çıxışlarında tez-tez mənfi emosiyalara müraciət edir: "*Сама Украина для нас не враг. А вот те, кто хотят уничтожить российскую государственность, те, кто хотят добиться, как они говорят, стратегического поражения России на поле боя, – это в основном на Западе, да и то там разные люди есть. Есть люди, которые нам симпатизируют и которые с нами душевно. Но есть так называемые элиты, для которых существование России – во всяком случае, в её сегодняшнем качестве, в её сегодняшних размерах – как они думают, неприемлемо. Они хотят раздробить*" [18] (Ukraynanın özü bizim düşmənimiz deyil. Amma Rusiya dövlətçiliyini məhv etmək istəyənlər, necə deyərlər, Rusiyanın döyüş meydanında - Qərbdə strateji məğlubiyyətə uğramasına nail olmaq istəyənlər, hətta orada da müxtəlif adamlar var. Bizə rəğbət bəsləyən, ruhən bizimlə olan insanlar var. Amma özünü elita adlandıran elələri də var ki, Rusiyanın mövcudluğu: ən azı indiki keyfiyyətinə görə, indiki

ölçüsünə görə onların düşündüyü kimi, qəbuledilməzdir. Parçalamaq istəyirlər (Tərcümənin müəllifi - K.Ə. Həbibova).

Bu nitq parçasından göründüyü kimi, natiq "*Запад*" (Qərb) leksemini "düşmən" konseptində istifadə edərək, ölkənin əsas təhdid mərkəzinin qərb ölkələrinin rəhbər qüvvələri olduğuna işarə edir və bununla da əhali arasında qorxu və narahatlıq yaratmaq, onların dəstəyini səfərbər etmək üçün emosional yüklü "*хотят раздробить*" (parçalamaq istəyirlər) ifadəsindən istifadə edərək fikrini tamamlayır.

Bu nitq parçasında biz V. Putinin qiymətləndirmə strategiyasından istifadə etdiyini müşahidə edirik. Siyasi nitqdə qiymətləndirmə siyasi razılığa nail olmaq üçün natiq tərəfindən istifadə edilən mühüm strategiyadır. Bu strategiyanı geniş şərh edən C. Sun və Z. Liu qeyd edirlər ki, "*siyasi nitqin inandırıcı gücü, əsasən, danışanın "ideal oxucu" mövqeyini "təbiiləşdirmək" və ya "zərərsizləşdirmək" üçün qiymətləndirmə resurslarından strateji məqsədlə istifadə etməsindən asılıdır*" [4, s.2143]. Bu fikirlə izah etməyə çalışırlar ki, natiqin müəyyən baxış və inancları formalaşdırmaq üçün qiymətləndirici vasitələrdən necə istifadə etdiyini dərk etmək auditoriyaya siyasi kontekstdə inandırma və manipulyasiya üçün istifadə olunan strategiyaları anlamağa kömək edə bilər. Söhbətin "təbiiləşdirilməsi" prosesini başa düşmək informasiyanı tənqidi qiymətləndirməyə, gizli məqsədləri müəyyən etməyə, ritorik hərəkətlərin inandırıcı və müəyyən nöqteyi-nəzərlərin formalaşmasına təsirini başa düşməyə imkan verir.

V. Putinin son illərdəki çıxışlarında müəyyən atmosfer yaratmaq və dinləyiciləri səfərbər etmək məqsədi daşıyan emosional üsullardan tez-tez istifadə olunur. Həmçinin onun çıxışlarında, məsələn, ifadənin başa düşülməsinə və qavranılmasına böyük təsir göstərən konkret obrazların və simvolların seçilməsi yolu ilə auditoriyanın qavrayışını idarə etmək üçün üsullardan istifadə olunur.

Nümunədən də göründüyü kimi, söylənilən nitqin mövzusu ideyanı, kommunikativ hədəfi və ya ictimai-siyasi dəyərlərin ifadəçisi kimi auditoriya tərəfindən lazımi səviyyədə dərk edilməsi məqsədi ilə əvvəlcədən seçilir və müəyyən şəkildə "qablaşdırılır". Nitqi manipulyativ strategiyalar daha çox ideologiya və təbliğat məzmunlu məlumatların strukturlaşdırılması üsulları üçün xarakterikdir.

Məsələn, ABŞ-ın sabiq prezidenti B. Obama çıxışlarında daha çox pozitivlik və ümid dolu ifadələrdən istifadə edirdi. Məsələn, o, məşhur çıxışlarından birində demişdir: "*After nearly six years as President, I believe that this promise can help light the world. Because I have seen a longing for positive change - for peace and for freedom and for opportunity and for the end to bigotry - in the eyes of young people who I've met around the globe*" [3] (Təxminən altı ilə yaxın prezident kimi fəaliyyət göstərdikdən sonra inanıram ki, bu vəd dünyanı işıqlandırmağa kömək edə bilər. Çünki mən dünyada tanış olduğum bütün gənclərin gözündə müsbət dəyişikliklərə - sülhə, azadlığa və imkanlardan yararlanmağa can atmaq və fanatizmə son qoymaq həvəsi gördüm).

B. Obama BMT-nin Baş Assambleyasında 2014-cü ildə söylədiyi bu çıxışını "güc haqdadır" prinsipi üzərində quraraq dünyada verilə biləcək istənilən qərarın məhz həqiqətə söykəndiyi an doğru olmasını vurğulayır: "*We believe that right makes might - that bigger nations should not be able to bully smaller ones and that people should be able to choose their own future*" [3] (Biz inanırıq ki, güc haqdadır - daha böyük xalqlar kiçik olanlara sataşmamalı və insanlar öz gələcəklərini seçə bilməlidirlər). Burada B. Obama dinləyici kütləni ruhlandırmaq və ümumi məqsədlərə çatmaq üçün bir araya gəlməyin vacibliyini vurğulamaq üçün emosional yüklü "*light the world*" (dünyanı işıqlandırmaq), "*believe*" (inanmaq) və "*positive change*" (pozitiv dəyişiklik) kimi söz və ifadələrdən istifadə etmişdir.

O, burada "*bigger nations*" (böyük xalqlar) ifadəsi ilə Rusiyaya, "*smaller ones*" (kiçik olanlar) ifadəsi ilə isə Ukraynaya işarə edərək hələ 2014-cü ildə közərməkdə olan qarşıdurmanın sülh yolu ilə çözülməsinə çağırırdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İ. Əliyevin də çıxışlarında pozitivliyi, dünyaya sülh mesajlarının verilməsini tez-tez müşahidə etmək olar. "*Ötən ilin sentyabr ayında biz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa edəndən sonra Ermənistanın dırnaqarası qarantorları tərəfindən siyasi hücumlara məruz qaldıq. Buna baxmayaraq, biz yenə sülh təklif etdik. İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb. Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən, o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuz illik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər*" [6]. 2024-cü ilin may ayında baş tutmuş "Sülh və Qlobal Təhlükəsizlik Naminə" mövzusunda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Azərbaycan Prezidentinin çıxışından nümunə gətirdiyimiz bu nitq parçasında İ. Əliyevin "*sülh*", "*müsbət tendensiya*" kimi pozitiv yüklü leksik vahid və ifadələrdən xüsusi natiq ustalığı ilə istifadə etdiyini görürük. Bununla da o, dünyaya Azərbaycanın regionda sülhün tam təminatına çalışması və bu yolda lazımi addımların atması mesajını vermişdir.

Haqlı olaraq qeyd edilir ki, siyasi liderin nitqində xəlqilik və millilik ən başlıca amillərdir. "*Bu cür nitqlər xalqa daha yaxın, doğma və inandırıcı təsir bağışlayır. Xalq dilində işlədilən frazeoloji vahidlərdən liderin də istifadə etməsi, yəni xalqla xalqın öz dilində danışması təbii ki, dövlət başçısını da öz vətəndaşına yaxınlaşdırır*" [2].

Hər bir nəzərdən keçirilən nitq parçasında siyasətçilərin öz mövqelərini müdafiə edərək dünya ictimaiyyətinə təsir etmək, ölkənin imicini formalaşdırmaq üçün emosional arqumentlərdə istifadə etdiyini müşahidə edirik.

Bunun əsasında da söyləyə bilərik ki, siyasi diskursda sözlərin müəyyən dəyərlər və ya simvollarla əlaqələndirilməsi texnikasından geniş istifadə olunur. Siyasətçilər seçilmiş söz və ya obrazlardan istifadə etməklə auditoriyada müəyyən asosiasiyalar yaratmağa çalışırlar. Bu, onlara özlərini və ya siyasətlərini istədikləri dəyərlər və ideyalarla əlaqələndirməyə imkan verir.

Məsələn, yuxarıda V. Putinin nitqindən verilən parçada onun Qərbi "döyüş meydanı" (.., *стратегического поражения России на* ***поле боя - это в основном на Западе***,..), B. Obamanın dünyada ədalətin bərpasını "dünyanın işıqlanması" (*I believe that this promise can help* ***light the world***), İ. Əliyevin nitqindən verilən parçada münaqişə yaratmaq "alova yenidən odun atmaq" (*Onlar həmin* ***alova yenidən odun atmaq*** *istəyirlər*) kimi təqdim etməsi auditoriyaya fikrin daha doğru şəkildə aşılanması kimi dəyərləndirilə bilər. Söylənilən fikrin müəyyən dəyərlər və ya simvollarla əlaqələndirilməsinin bu üsulu siyasi ritorikada geniş istifadə olunur.

A. Allahverdiyeva Prezident İ. Əliyevin multikultural üslublu nitqlərini təhlil edərkən belə bir qənaətə gəlir ki, "*Prezident İ. Əliyevin nitqində ekspressivlik öz ifadəsini fəal metaforik modellər və təyinlərin semantik dərəcələnməsi vasitəsilə gerçəkləşdirir. Bütövlükdə, bu vasitələr auditoriya ilə səmimi ünsiyyət effektinin yaranmasına vəsilə olur. Bütün qeyd olunan vasitələr, eləcə də indiki zaman planında multikultural kontekstin məxsusi olaraq ümumiləşdirilməsini Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin natiqlik imicinin fərdi səciyyəsi hesab etmək olar*" [1].

Siyasətçilər öz çıxışlarında tez-tez müəyyən dəyərlər və ya ideyalarla əlaqəli söz və ya ifadələrdən istifadə edirlər. Məsələn, siyasətçi özünü və ya siyasi kursunu bu dəyərlərlə əlaqələndirmək üçün tez-tez "azadlıq", "ədalət", "vətənpərvərlik" sözlərinə müraciət etməklə fəaliyyəti haqqında ictimaiyyətdə müsbət rəy yaradır. Bu kimi hallar daha çox siyasi debatlar və ya seçki kampaniyaları çərçivəsində həyata keçirilən çıxışlarda müşahidə edilir.

Söz və simvolların dəyərlər və ya ideyalarla əlaqələndirilməsinin bu cür üsulları siyasətçilərə seçicilərə və ya ictimaiyyətə təqdim etmək istədikləri imicini formalaşdırmağa kömək edir və onların siyasi fəaliyyəti və şəxsiyyəti haqqında təsəvvürlərinə təsir edir.

Əlbəttə ki, siyasi ritorikada sözlərin müəyyən dəyərlərlə əlaqələndirilməsi metodunun istifadəsinə dair nümunə olaraq 2008-ci ildə B. Obamanın ABŞ prezidentliyinə seçkiləri zamanı istifadə etdiyi "*Change we can believe in*" (İnanacağımız dəyişiklik) ifadəsi xüsusilə məşhur bir ifadəyə çevrilmişdir. Bu ifadə onun seçki kampaniyasının əsas şüarına çevrilərək dəyişiklik (yenilik) və ümid ideyaları ilə əlaqələndirilməni nəzərdə tuturdu (B. Obama ABŞ tarixində ilk dəfə olaraq seçilən qaradərili Prezident oldu). B. Obama tez-tez bu ifadədən seçiciləri yeniliyə, fərqliliyə və siyasəti daha şəffaf və hesabatlı etmək bacarığına inandırmaq üçün istifadə edirdi. Bu nümunə siyasətçinin imicini gücləndirmək və seçici dəstəyini cəlb etmək üçün sözlərin dəyərlərlə əlaqələndirilməsi metodunun istifadəsinin ən bariz nümunəsidir.

B. Obamanın seçki kampaniyasındakı debatlarını və çıxışlarını təhlil edən F. Dzuseva və E. Karacayeva qeyd edirlər ki, "*onun çıxışlarının mətnləri Obamanı kütləvi şüurun mahir*

*natiq-manipulyatoru kimi səciyyələndirir. O, özü haqqında gözəl əfsanə yaradır, dinləyicilərini maraqlı intriqaya cəlb edir, seçicidə həqiqətən də ölkənin və dünyanın taleyində nəyisə həll edə biləcəyi təəssüratı yaratmaqla mahircəsinə seçicilərin hissləri ilə oynayır (onlara qələbə hissi yaşadır)*" [8, s.223].

Ümumiyyətlə, nitqi manipulyasiya siyasi diskursda mühüm rol oynayır, siyasətçilərə ictimai rəyi formalaşdırmağa, şüuru manipulyasiya etməyə və məqsədlərinə çatmağa kömək edir. "*Dil işarəsinin manipulyativ funksiyası linqvistik təhlükəsizlik ilə əlaqələndirilir, idrak yanaşması çərçivəsində fikrin həyata keçirilməsinin konkret üsulu kimi başa düşülür*" [10, s.67]. Siyasi hakimiyyət həmişə cəmiyyətə təsir etmək üçün güclü vasitə olub, ona görə də onun nümayəndələri hakimiyyətin saxlanması və səmərəliliyinin artırılması, o cümlədən gözəl nitqə sahib olmaq üçün bütün mümkün vasitələrdən istifadə etməyə çalışırlar. Bu baxımdan siyasi diskurs çərçivəsində nitqi manipulyasiyanın müasir strategiyalarının təhlili müasir informasiya cəmiyyətində təsir mexanizmlərini, texnikalardan istifadə fərqlərini və onların effektivliyini daha yaxşı anlamağa imkan verir.

Bəzən siyasi arenada dünyanı təşvişə salacaq siyasi şüarların da səsləndirildiyini müşahidə etmək mümkündür. Məsələn, son illər Rusiyada rus şovinizmi əsasında ölkədaxili xalqlar arasında münaqişə yaratmağa hesablanmış və tez-tez səsləndirilən "*Россия - только для русских*" (Rusiya ancaq ruslar üçündür) şüarı real siyasi təhlükədən xəbər verir. Hətta, çıxışlarının birində bu məsələyə toxunun V. Putinin özü belə etiraf edir ki, "*Когда я слышу наших ура-патриотов - такие люди везде есть, в любом обществе - в том числе тех, кто говорит, что Россия только для русских, знаете, у меня чувство тревоги возникает. Потому что у нас в стране 190 этносов, и некоторые национальности представлены миллионными народами, но, как только мы начнем реализовывать эти деструктивные идеи, развалим страну. И главным пострадавшим будет русский народ. Нужно относиться к этому очень серьезно, не махать руками и болтать языком, а думать, когда произносишь каждое слово, каждую фразу. Думать о том, что у нас одна большая Родина*" [14] (Rusiyanın yalnız ruslar üçün olduğunu söyləyən dırnaqarası vətənpərlərimizi (belə insanlar hər yerdə var) eşidəndə, bilirsiniz, məndə narahatlıq hissi yaranır, çünki ölkəmizdə 190 etnik qrup var, elə xalqlar var ki, əhali sayı milyonlarla ölçülür, lakin biz bu dağıdıcı ideyaları həyata keçirməyə başlayan kimi öz ölkəmizi məhv edəcəyik və əsas qurban da rus xalqı olacaq. Buna çox ciddi yanaşmaq lazımdır, harda gəldi əl-qol atıb, ağzımıza gələni danışmayaq, hər bir sözü deməmişdən öncə bir düşünmək lazımdır ki, bizim bir böyük Vətənimiz var).

Bu uğursuz şüara qarşı daha sonra 2024-cü ilin fevral ayında Rusiya Federasiyasında baş tutan seçki kampaniyasının ümumi şüarı irəli sürüldü və bununla da cəmiyyətə V. Putin hakimiyyətinin "Vahid Rusiya" ideyasına dəstək mesajı verildi. Şüar belə səslənirdi: "*Вместе мы сила - голосуем за Россию!*" (Biz birlikdə güclüyük - Rusiya uğrunda səs verək!). Bu şüarda öz əksini tapan manipulyativ nitqi strategiyada xalqlar arasında bərabərliyin, ölkədə sabitliyin ideyası əsas kimi ortaya qoyulmuşdur.

"*Biz birlikdə güclüyük*" şüarı bundan daha öncə Azərbaycanın Ermənistana qarşı apardığı 44 günlük müharibə dönəmində xalqımız arasında geniş yayılmış ən məşhur şüarlardan biri kimi istifadə edilirdi. 2021-ci ildə bütün Azərbaycan xalqını təcavüzkar düşmənə qarşı mübarizədə birliyə səsləyən bu şüardan 2024-cü ildə Rusiya Federasiyasının Mərkəzi Seçki Komissiyası ölkə vətəndaşlarını prezident seçkilərində aktiv iştirak etməyə çağırış məqsədi ilə istifadə etmişdir.

Dünya təcrübəsində eyni bir siyasi şüardan (təbii ki, uğurlu olanlardan) fərqli kampaniyalarda yararlanma hallarına rast gəlmək mümkündür. Lakin bu kimi hallar heç də xoş təsir bağışlamır. Çünki, hər bir şüar təbliğ etdiyi ideya, ölkə və ya siyasi fiqur üçün unikal olaraq seçilməlidir. Məsələn, 2008-ci ildə B. Obamanın bütün seçki kampaniyası "Change" şüarı altında təşkil edilmişdir, bununla da bu şüarla onun komandası seçilən strategiyada əlavə NLP (neyro-linqvistik proqramlaşdırma) kanalı yaratmağa müfəvvəq olmuşdur.

Bu məqamla bağlı olaraq O.V. Zaprudskaya haqlı olaraq qeyd edir ki, "*ən çox yayılmış strategiyalar özünü təqdim etmə strategiyaları və nitqi manipulyativ strategiyalarıdır*" [10, s.66] ki, bunlar da siyasi arenada dominativ fəaliyyət göstərən fiqurun "vizit kartı"na çevrilir. Məsələn, V. Putinin 2018-ci ildəki seçki kampaniyası üçün seçilən "*Сильный президент - сильная Россия*" (Güclü prezident - güclü Rusiya) şüarı ilə 2024-cü ilin may ayında Litvada baş tutan prezident şeçkilərinə qatılmış İnqrid Şimonitenin seçki kampaniyasının "*Stiprus prezidentas reiškia stiprią šalį*" (Güclü prezident güclü ölkə deməkdir) şüarı, demək olar ki, bir-birinə identik idi.

Bu barədə media səhifələrinin birində qeyd edilir ki, "*Avtoritarizmdə ittiham olunan Putin 2018-ci ildə Rusiya prezident seçkilərində demək olar ki, eyni şüarla "Güclü Prezident – Güclü Rusiya" şüarı ilə iştirak etdiyindən Şimonite cümə günü "Güclü Prezident - Güclü Ölkə" prezident seçkiləri kampaniyası şüarını təqdim etdiyi üçün tənqid edilib. Bu şüarın Litva variantında həm də "prezident" sözü qadın cinsində ifadə edilib.*

*Linge bildirib ki, seçki kampaniyası dövlətin baxışı ilə bağlı müzakirələrə əsaslanacaq, bu şüardan seçkiləröncəsi kampaniyanın daha sonrakı mərhələsində istifadə edilməsə də, güclü namizəd imicinin vurğulanması davam ediləcək*" [16].

Azərbaycan Respublikasının dövlət başçısı cənab İ. Əliyevin 2018-ci ildəki seçki kampaniyasının aparıcı şüarı olan "*İlhamla irəli!*" sloqanında isə söz oyunundan istifadə edilməklə ölkənin gələcəyi üçün doğru seçimin İ. Əliyevin olması, onun siyasi kursunun dəstəklənməsi dayanırdısa, 2024-cü ildə artıq seçkilərə Vətən müharibəsində zəfər qazanmış sərkərdə kimi qatılan namizədin seçki şüarı "*Qalib xalqın Qalib lideri!*" şəklində uğurlu bir formasiyada təqdim edilmişdir.

Qeyd edilməlidir ki, Azərbaycan Prezidenti İ. Əliyevin çıxışlarında işlətdiyi bir çox cümlə və ya ifadələr xalqın dilində əzbər olmuş, aparıcı şüara çevrilmişdir. Azərbaycanın göz bəbəyi olan qədim Şuşanın azad edilməsi ilə bağlı onun çıxışının kuliminasiya nöqtəsində

dayanan "*Əziz Şuşa, biz qayıtdıq! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz səni dirçəldəcəyik!*" ifadələri bu gün "Qarabağa qayıdış" hərəkatının əsas sloqanına çevrilmişdir.

Prezident İ. Əliyevin çıxışlarını təhlil edərkən, onun siyasi diskursda istifadə etdiyi bir neçə strategiya və texnikanı qeyd edə bilərik. Məsələn, İ. Əliyev öz auditoriyasında rəğbət oyatmaq üçün tez-tez emosional arqumentlərdən istifadə edir. Xüsusilə əldə olunan nailiyyətləri və vətənpərvərlik dəyərlərini vurğulamağa üstünlük verir, o, dinləyiciləri düşünməyə sövq etmək və düşüncələrinə təsir etmək üçün tez-tez ritorik suallardan istifadə edir. Ümumiyyətlə, İ. Əliyevin çıxışlarının təhlili onun siyasi məqsədlərinə çatmaq üçün müxtəlif strategiya və manipulyasiyalardan səmərəli istifadə etmək bacarığını ortaya qoyur. Dilçi-alim İ. Tahirov bu məsələ ilə bağlı vacib məqamlara toxunaraq xüsusilə qeyd edir ki, "*siyasi dilin üstün olduğu mətnlərdə də milli dilin imkanlarından istifadə edilir və bu, siyasi dili kütləvi auditoriya üçün əlçatan, eyni zamanda kütləvi şüurun manipulyasiyası üçün kifayət qədər çevik edir*" [5, s.13].

Emosional üsullar siyasi diskursun mühüm tərkib hissəsidir. Bu baxımdan siyasətçilərin çıxışında auditoriyaya bağlılıq və emosional əlaqə yaratmaq, güclü emosional reaksiyalar yaratmaq, vətənpərvərlik və milli hissləri aktivləşdirmək, cəlbedici hiperbol və metaforalardan istifadə etmək kimi emosional texnikalardan istifadəni asanlıqla müşahidə etmək olar. Çıxışlarının təsirini artırmaq və auditoriyanı maraqlandırmaq üçün dinləyicilərdə müəyyən emosiyalar oyatmağa çalışırlar. Emosional üsullardan istifadə siyasətçilərə dinləyicilərin davranış və fikirlərini effektiv manipulyasiya etməyə, lazımi atmosferi yaratmağa və onların emosional vəziyyətinə təsir etməyə imkan verir. Nəzərdən keçirdiyimiz nitq parçaları, dil faktlarının təhlili siyasi diskursda manipulyativ nitqi strategiyalarının fərqli taktikalara və ideyalara söykənməsi amilini sübuta yetirir.

**Nəticə.** Siyasi diskursda tez-tez müxtəlif manipulyasiya üsullarından, o cümlədən emosional aspektlərdən və elementlərdən istifadə edilir. Siyasətçilər dinləyicilərdə müəyyən hislər və assosiasiyalar oyatmaq üçün emosional arqumentlərdən fəal şəkildə istifadə edirlər ki, bu da onların qərar qəbul etməsinə təsir edə bilər.

İnandırıcı olmaq və auditoriyaya təsir etmək üçün siyasətçilər müəyyən assosiasiya və hisslər doğura bilən müəyyən obrazlar, simvollar və sözlər seçirlər. Bu emosional gücləndiricilərdən istifadə etməklə onlar ictimaiyyətə təsir göstərməyə, müəyyən fikir və münasibətlər formalaşdırmağa çalışırlar. Siyasi diskurs tez-tez auditoriyanı inandırmaq və idarə etmək məqsədi ilə müxtəlif qiymətləndirmə və manipulyasiya strategiyalarından, o cümlədən emosional elementlərdən istifadə edir.

Siyasi diskursda söz və simvolların müəyyən dəyər və ideyalara bağlanması kimi müxtəlif manipulyasiya üsullarından fəal şəkildə istifadə olunur. Bu üsullar siyasi liderlərə öz siyasətlərinin və strategiyalarının aydın mənzərəsini izləyicilərinə təqdim etməyə kömək edir. Rusiya Federasiyasının Prezidenti V. Putin, Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev və ABŞ-ın sabiq Prezidenti B. Obama kimi siyasi liderlər auditoriyanı inandırmaq və təsir etmək üçün çox vaxt özünəməxsus ifadə və simvollardan istifadə edirlər. Məsələn, "azadlıq",

"ədalət", "vətənpərvərlik" sözlərindən fərqli formatlarda istifadə etməklə auditoriyada müsbət emosiyalar oyatmaq, onların dəstəyini gücləndirmək olar.

Çox vaxt siyasi liderlər öz mövqelərini gücləndirmək və ictimaiyyətə təsir etmək üçün çıxışlarında müxtəlif vasitələrdən istifadə etmişlər və istifadə etməkdə də davam edirlər. Məsələn, hər bir siyasi fiqur üçün seçilmiş individual şüar və ya şüarlar siyasi kampaniyaların bir hissəsinə çevrilir, müəyyən ideya və dəyərləri gücləndirir və liderlərə öz mesajlarını, nəinki ölkədaxili auditoriyaya, eləcə də dünya ictimaiyyətinə daha dəqiq çatdırmağa kömək edir.

Beləliklə, siyasi diskursun təhlili bizə siyasi liderlərin ictimai rəyə təsir mexanizmlərini daha yaxşı anlamağa imkan verir, həmçinin onların məqsədlərinə çatmaq üçün istifadə etdikləri müxtəlif strategiya və metodları müəyyən edir.

## Ədəbiyyat

1. Allahverdiyeva A. Azərbaycan Prezidenti İlham Əliyevin multikultural üslublu nitqləri. https://adu.edu.az/en/adu-haqqinda/elmi-eserler/4087.html
2. Nitqi orduya bərabər lider. (2021), AZƏRTAC, Bakı, 18 oktyabr. https://azertag.az/xeber/nitqi_orduya_beraber_lider-1902414 (müraciət olunma tarixi: 12.07.2023).
3. Remarks by President Obama in Address to the United Nations General Assembly, United Nations General Assembly Hall, New York City, 10:13 A.M. EDT: https://obamawhitehouse.archives.gov/the-press-office/2014/09/24/remarks-president-obama-address-united-nations-general-assembly (müraciət olunma tarixi: 09.12.2023).
4. Sun J., Liu Z. (2023), Evaluation mechanism of political discourse: A holistic approach. Journal of Psycholinguistic Research, Vol.52, No.6, 2143-2179. https://doi.org/10.1007/s10936-023-09988-7
5. Tahirov İ. (2023), Heydər Əliyevin andiçmə nitqlərinin linqvostatik və funksional təhlili. Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 13-18.
6. VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində İlham Əliyevin nitqi. (2024), 01 may 2024, 10:00. https://president.az/az/articles/view/65759 (müraciət olunma tarixi: 09.05.2024).
7. Zamanov N. (2018), Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 520.
8. Дзуцева Ф.С., Каражаева Э.И. (2015), Предвыборные речи Б.Обамы и его оппонентов в президентских гонках 2008 и 2012 годов. Вестник МГЛУ, Том.6, No.717, 218-228.
9. Дьяченко И.А., Королева Т.А., Петрухина О.П. (2020), Средства манипуляции в политическом дискурсе (на материале выступлений Д. Трампа). Тамбов: Филологические науки. Вопросы Теории и Практики, Том.13, No.9, 212-215. https://doi.org/10.30853/filnauki.2020.9.39

10. Запрудская, О.В. Благодарность в политической коммуникации как средство манипуляции и суггестии. Вестник Южно-Уральского государственного университета. Серия: Лингвистика, Том.19, No.2, 65-72. https://doi.org/10.14529/ling220209
11. Ильичева Ю.А. Речевое манипулирование в политическом тексте. Вестник СпбГУ. https://cyberleninka.ru/article/n/rechevoe-manipulirovanie-v-politicheskom-tekste/viewer (müraciət olunma tarixi: 14.02.2024).
12. Карапетова И.Н. (2024), К вопросу о наиболее и наименее часто использующихся лексико-грамматических приёмах речевого манипулирования в политических текстах. Российский Лингвистический Бюллетень, Том.3, No.51. https://doi.org/10.18454/RULB.2024.51.18
13. Королева Т.А. (2017), Лингвистические средства реализации социальной оппозиции «свой - чужой» в политическом дискурсе. Тамбов: Филологические науки. Вопросы теории и практики, Том.5, No.71, Ч. 2, 85-88.
14. Лозунг, что Россия только для русских, вызывает чувство тревоги - Путин. SPUTNİK Кыргызыстан. 09:50 28.03.2024. https://ru.sputnik.kg/20240328/lozungi-chto-rossiya-tolko-dlya-russkikh-vyzyvayut-chuvstvo-trevogi--putin-1083782338.html (müraciət olunma tarixi: 30.04.2024).
15. Михалева О.Л. (2009), Политический дискурс: Специфика манипулятивного воздействия. Москва: ЛИБРОКОМ, 256.
16. Неосмотрительность: Предвыборный лозунг Шимоните будет изменен. BNS, 2024.03.04 10:43. https://www.lrt.lt/ru/novosti/17/2213475/neosmotritel-nost-predvybornyi-lozung-shimonite-budet-izmenen (müraciət olunma tarixi: 20.04.2024).
17. Шиллер Г. (1980), Манипуляторы сознанием. Москва: Мысль, 326.
18. Посещение Центрального военного клинического госпиталя имени А.А. Вишневского. http://www.kremlin.ru/events/president/news/73205 (müraciət olunma tarixi: 03.04.2024).